

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 6 (23.893)

12 yanvar 2022-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



2021-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə maliyyə naziri Rafael Əliyev açıb. Nazir bildirib ki, 2021-ci il Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirlərinin 72 faizi və ya 104 milyon 353 min 942 manatı Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin, 21,6 faizi və ya 31 milyon 404 min 916 manatı Dövlət Gömrük Komitəsinin xətti ilə toplanılıb, 5,3 faizi və ya 7 milyon 668 min 598 manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 1,1 faizi və ya 1 milyon 610 min 576 manatı isə digər mənbələr hesabına daxil olub.

Vurğulanıb ki, ötən il ərzində büdcənin mərkəzləşdirilmiş gəlirləri 117 faiz icra olunub, Avtomobil Yolları Məqsədli Büdcə Fonduna daxil olan vəsait istisna olmaqla, Naxçıvan şəhəri üzrə 104,5 faiz, Şərur rayonu üzrə 104,6 faiz, Babək rayonu üzrə 101,8 faiz, Ordubad rayonu üzrə 102,1 faiz, Culfa rayonu üzrə 101,9 faiz, Şahbuz rayonu üzrə 103,1 faiz, Kəngərli rayonu üzrə 102,9 faiz, Sədərək rayonu üzrə 103 faiz icra edilib. 2021-ci il Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 544 milyon 167 min 765 manat təyinata qarşı 542 milyon 507 min 355 manat və ya 99,7 faiz icra olunub.

Diqqətə çatdırılıb ki, dövlət büdcəsi vəsaitlərinin səmərəli istifadə edilməsi və qənaət tədbirlərinin gücləndirilməsi məqsədilə büdcə təşkilatları tərəfindən satın alınmış mal-material və avadanlıqların qiymətlərinə mütəmadi nəzarət edilib, qiymət intizamının təmin olunması istiqamətində tədbirlər görülüb. Bu istiqamətdə aparılan işlərin nəticəsində 2021-ci il ərzində 9 milyon 500 min manatdan çox vəsaitin əsassız xərclənməsinin qarşısı alınıb. Təşkil edilən maliyyə nəzarət tədbirləri zamanı müəssisələrin mühasibatlıq sənədləri təftiş olunub, yol verilmiş nöqsanlar və digər qanun pozuntuları nəticəsində vurulmuş ziyan müəyyənləşdirilərək təqsirli şəxslər tərəfindən dövlət büdcəsinə bərpa edilib. 2021-ci ildə muxtar respublika üzrə, ümumilikdə, 315 min 286 manat məbləğində vəsait bərpa edilərək dövlət büdcəsinə ödənilib. Yerində təşkil olunmuş yoxlamalar zamanı müəssisə və təşkilatlarda əmək intizamına əməl edilməməsi, təyinatından kənar xərc əməliyyatları, əsassız xərclərə səbəb olan qurğuların istifadəsi və enerjidən israfçılıqla istifadə halları aşkarlanaraq qanunamüvafiq qaydada rəsmiləşdirilib, 71 vəzifəli şəxsə cərimələr tətbiq edilərək, ümumilikdə, 15 min 40 manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin olunub.

Diqqətə çatdırılıb ki, ötən il ərzində büdcə müəssisə və təşkilatlarında ştat cədvəlləri və strukturlara nəzarət, əsassız saxlanılan ştat vahidlərinin optimallaşdırılması, strukturun təkmilləşdirilməsi tədbirləri davam etdirilib. Təşkilatların balansında olan, saxlanılması xeyli miqdarda vəsait tələb edən istismara yararsız nəqliyyat vasitələrinin balansdan silinməsi təmin edilib, dövlət büdcəsinin lüzumsuz xərclərinin azaldılmasına nail olunub. Nəzarət tədbirlərinin daha operativ şəkildə həyata keçirilməsi məqsədilə görülən işlərin elektron platformada icrasına şərait yaradılıb. 2021-ci il ərzində muxtar respublikada xəzinədarlıq əməliyyatları üzrə maliyyə sənədlərinin real vaxt rejimində daxil edilməsi və nəzarətin həyata keçirilməsi üçün nazirliyin elektron sisteminə yeni modullar əlavə olunub və təkmilləşdirmə işləri həyata keçirilib. Elektron nəzarət mexanizmlərində əlavələr işlənilib, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların ştat cədvəlləri elektron şəkildə sistemə daxil edilib və zəruri olan bütün digər məlumatların əlavə edilməsi həyata keçirilib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində 2021-ci ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən kollegiya iclasında təhsil naziri Rəhman Məmmədov görülən işlərlə bağlı məruzə edərək ötən il təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərdən danışıb.*

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 20 dekabr tarixli sərəncamları ilə 2022-ci ilin yanvarın 1-dən Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin aylıq vəzifə maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz, dövlət peşə təhsili müəssisələrində idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin isə aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Həmçinin gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin hərbi rütbəyə görə aylıq vəzifə maaşlarına əlavələr edilib.

Bildirilib ki, təhsilin inkişafında xidmətlərinə görə 2021-ci il ərzində Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə 4 müəllim "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 6 müəllim "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adları ilə, 4 müəllim isə "Tərəqqi" medalı ilə təltif olunub.

Qeyd edilib ki, ötən il Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsə çevrilib, məktəbəqədər təhsil müəssisələri Təhsil Nazirliyinin tabeliyinə verilib, Təhsil Nazirliyinin tabeliyində Distant Təhsil Mərkəzi yaradılıb. Bunlarla yanaşı, "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən 53 təhsil müəssisəsində STEAM kabinəsi, o cümlədən Heydər Əliyev adına tam orta məktəbdə STEAM Tədris Mərkəzi yaradılıb.

2021-ci il yanvar ayının 1-dən etibarən Televiziya və Radio Verilişləri Redaksiyası təhsilyönümlü televiziya və radio proqramlarının yayımına başlayıb, yanvar-may aylarında ümumtəhsil məktəblərində pedaqoji fəaliyyətlə məşğul olanların sertifikatlaşdırılması aparılıb, il ərzində təhsil müəssisələrində 202 idman klubu yaradılıb, gənc müəllimlərin fəallığını, peşəkar və fərdi inkişaflarını artırmaq məqsədilə Təhsil Nazirliyi tərəfindən "Naxçıvan Gənc Müəllimlər Assosiasiyası" İctimai Birliyi təsis edilib.

Vurğulanıb ki, muxtar respublika təhsilinə göstərilən dövlət qayğısı nəticəsiz qalmayıb, məzunlar buraxılış və qəbul imtahanlarında uğurlu nəticələr əldə ediblər. Belə ki, 2021-ci ildə buraxılış və qəbul imtahanlarında iştirak edən məzunların 73 faizi ali və orta ixtisas təhsili müəssisələrinə daxil olub. 261 məzun qəbul imtahanlarında 500-700 arası bal toplayıb, onlardan 3-ü Prezident təqaüdünə layiq görülüb. Bununla yanaşı, hesabat dövründə 47 şagird muxtar respublika, 26 şagird respublika fənn olimpiadalarının, 55 şagird "Məktəblilərarası VI fənn müsabiqəsi"nin, 43 şagird isə Kenquru Beynəlxalq Riyaziyyat Müsabiqəsinin qalibi olub. Məzunlardan 17-si "Qızıl", 17-si "Gümüş" nişana, 41-i isə fərqlənmə attestatına layiq görülüb, ümumi orta təhsil səviyyəsi üzrə isə 121 məzun fərqlənmə attestatı alıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən kollegiya iclasını nazir Natavan Qədimova açaraq bildirmişdir ki, bütün illərdə olduğu kimi, 2021-ci ildə də əlamətdar və mədəni tarixi günlərin qeyd olunması nəzarətdə saxlanılmış, nazirlik tərəfindən muxtar respublikada mədəni-kütləvi tədbirlər keçirilmiş, sərgilər qurulmuşdur.*

Qeyd olunmuşdur ki, 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası tərəfindən "Milli ordumuz dövlət müstəqilliyimizin ən böyük dayağıdır" mövzusunda tədbir keçirilmiş, hərbi qulluqçular üçün Şahbuz Rayon Xalq Teatrı tərəfindən "Qarabağ şikəstəsi" tamaşası nümayiş olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında" müvafiq Sərəncamının icrası ilə bağlı Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasının əsasında "Nizaminin sirlər xəzinəsi" adlı tamaşa hazırlanmış, "Nizami dünyası" teatr müsabiqəsi keçirilmişdir.

Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair sərəncamlarının icrası ilə bağlı hazırlanmış Tədbirlər planları əsasında bir sıra işlər görülmüşdür.

İl ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı yaradılmış "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil edilməsi üçün 23 ədəd yeni xalçanın pasportlaşdırılması ilə bağlı müvafiq iş aparılmış, reyestrə 33 xalça haqqında məlumat daxil edilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" müvafiq Sərəncamının icrası ilə bağlı Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində Aşıq Ələsgərə həsr edilmiş guşə zənginləşdirilmiş, muzeydə "Aşıq Ələsgər yaradıcılığı" mövzusunda interaktiv dərs təşkil olunmuş, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin, Aşıqlar və Yazıçılar birliklərinin birgə təşkilatçılığı ilə yaradıcılıq müsabiqəsi keçirilmişdir.

Diqqətə çatdırılmışdır ki, ötən ilin noyabr ayında Məhəmməd Tağı Sidqinin ev-muzeyində Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən görkəmli pedaqoq və oğlu Məhəmmədəli Sidqiyə aid əlyazma nüsxələrin, Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində "Cavidşünaslıq" çoxcildliyinin təqdimat mərasimləri keçirilmişdir.

Xalq yaradıcılığının öyrənilməsi, yaşadılması və gələcək nəsillərə çatdırılması ilə bağlı ötən dövr ərzində mütəmadi iş aparılması ilə əlaqədar məlumat verən nazir bildirmişdir ki, hesabat dövründə, ümumilikdə, xalq yaradıcılığı ilə bağlı 104 videomaterial hazırlanmışdır.

Hesabat dövrü ərzində nazirliyin rəsmi internet səhifəsinin fəaliyyəti diqqətdə saxlanılmış, mütəmadi olaraq məlumatlar yenilənmişdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunda keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq məruzə edib.



Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri hesabat dövründə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Keçirilən görüşdə tələbələrə startap layihələri və istintaq hərəkətlərinin aparılmasına aid slaydlar nümayiş etdirilib, hadisə yerinə baxış istintaq hərəkətinin aparılması qaydası izah olunub, həmçinin kitabxana fondu, prokurorluq orqanlarında müraciətlərə baxılması, ittihamı elanetmə qaydaları və ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında məlumatlar verilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" qanunları və digər normativ-hüquqi aktları rəhbər tutaraq 2021-ci ildə digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yaxından iştirak etməklə, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə çalışıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 8 iyul 2021-ci il tarixli sessiyadakı məruzəsində ***"Naxçıvan Muxtar Respublikası Prokurorluğu qanunların icra və tətbiq olunmasına nəzarəti daha təsirli formada həyata keçirməlidir"*** tapşırığının icra olunması məqsədilə prokurorluq əməkdaşları səlahiyyət hədləri daxilində bundan sonra da qanunların düzgün və daha təsirli formada tətbiq olunması üçün bütün zəruri tədbirləri görməlidirlər. Bununla yanaşı, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili də prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılıb. Belə ki, müraciət etmiş hər bir vətəndaş prokurorlar tərəfindən qəbul edilərək dinlənilib, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülüb. Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları hər bir müraciətin hərtərəfli və obyektiv baxılmasını təmin etməklə vətəndaşların qəbulu işini növbəti hesabat dövründə də səmərəli təşkil edəcəklər.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla yekunlaşıb.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə olunub



*Yanvarın 11-də Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib.*

Tədbirdə çıxış edən xidmətin rəisi Bəxtiyar İsmayılov bildirib ki, 2021-ci il ərzində, ümumilikdə, məhsul nümunələrinin 1007 halda, o cümlədən qida məhsullarının 946 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunmuş və bu istiqamətdə ciddi nöqsanlar aşkar edilməmişdir.

Vurğulanıb ki, muxtar respublika iqtisadiyyatının bütün sahələrində sürətli inkişafın təmin edilməsi məqsədilə təsdiq olunmuş Dövlət proqramlarının icrası istiqamətində fəaliyyət 2021-ci il ərzində də ciddi qaydada davam etdirilmişdir.

Bildirilib ki, aidiyyəti orqanlarla birgə 2021-ci ilin 20-21 noyabr tarixlərində ailə təsərrüfatı məhsullarının satış-yarmarkası təşkil olunmuş və yarmarkaya 481 ailə təsərrüfatı tərəfindən məhsul çıxarılmışdır. Ümumilikdə, 12575 nəfərin iştirak etdiyi yarmarkada 464680 manat həcmində məhsul satılmışdır. Bununla yanaşı, yarmarkada "Naxçıvan Məhsulları" publik hüquqi şəxs tərəfindən 2580 manat dəyərində ailə təsərrüfatı məhsulu alınmışdır.

Diqqətə çatdırılıb ki, təsərrüfat subyektlərinə 2021-ci il ərzində lisenziya alınması üçün 43 təsdiqedici sənəd, 238 uyğunluq sertifikatı, 1 kalibrlənmə sertifikatı, 19 qida təhlükəsizliyi sertifikatı, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən 21 subyektə dövlət reyestrindən çıxarış, əmtəə nişanına dair 89 şəhadətnamə, ixtiranın mühafizəsi üzrə 1 patent, sənaye nümunəsinin mühafizəsi üzrə 1 patent verilmiş, 10 sınaq laboratoriyası akkreditasiya olunmuş, 10 sınaq laboratoriyasında inspeksiya nəzarəti aparılmış və 3 subyektin qida təhlükəsizliyi qeydiyyatı üzrə dövlət reyestrindən çıxarışı ləğv edilmişdir. 2021-ci il ərzində metroloji norma və qaydalara uyğun olaraq 14704 ədədölçmə vasitəsi yoxlanılmışdır.

Sonra çıxışlar dinlənilib.

Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzində keçirilən tədbiri mərkəzin sədri İsmayıl Qəribli açaraq bildirib ki, hesabat dövründə dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün 3 müsabiqə keçirilib, bu müsabiqələrdə 1827 namizəd iştirak edib, onlardan 878-i uğur qazanıb, imtahanlarda uğur qazanan 108 namizəd müxtəlif vəzifələrə təyin olunub. 16 namizəd isə ehtiyat kadrlar siyahısına daxil edilib. Eyni zamanda ehtiyat kadrlar siyahısından 6 namizəd işlə təmin olunub. Hazırda muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının, təqribən, 41,7 faizi Dövlət İmtahan Mərkəzinin keçirdiyi müsabiqələrdə uğur qazanmış dövlət qulluqçularıdır. Ümumilikdə, 2021-ci il ərzində müxtəlif istiqamətlər üzrə keçirilən 19 test imtahanında 9505 namizəd iştirak edib, onlardan 6065-i uğur qazanıb. Ötən il Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlar nəticəsində 499 nəfər müvafiq vəzifələrə təyin olunub.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın 53 dövlət orqanı ötən il üçün inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsini həyata keçirib, ümumilikdə, 1664 nəfər dövlət qulluqçusunun xidməti fəaliyyəti qiymətləndirilib. Ötən il Dövlət



qulluqçuları reyestrindəki 2407 dövlət qulluqçusunun məlumatları yenilənib və artırılıb. Həmçinin yeni yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət orqanları işçilərinin reyestri ilə bağlı işlər aparılıb.

İmtahan Mərkəzinə hamiliyə verilmiş Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi və Dövlət və ictimai münasibətlər ixtisaslarının tələbələrinə müxtəlif mövzularda 5 açıq dərs keçildiyini deyən İsmayıl Qəribli qeyd edib ki, həmçinin ötən il Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində "Karyera günü" təşkil olunub. Mərkəzin əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu Şərur və Ordubad rayonlarında iki gün ərzində, ümumilikdə, 52 vətəndaşa səyyar xidmət göstərib.

Sonda çıxışlar olub.

**Xəbərlər şöbəsi**

---

*Ümummilli liderimiz Heydər Əliyevin* ***"Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir"*** *mübarək kəlamının əməldə təcallasının təntənəsini yaşayırıq Müzəffər Ali Baş Komandanın rəhbərliyi, igid oğulların şücaəti sayəsində. Ulu öndər siyasətinin müdrikliyi, böyüklüyü, bu dahi siyasətçinin təməlini qoyduğu əbədiyyət yoluna sədaqət muxtar respublikamızın timsalında həm müharibədən əvvəl, həm müharibə dövründə, həm də sonrakı mərhələdə şəhid ailələrinə, müharibə iştirakçılarına, qazilərə göstərilən ehtiramda, qayğıda, həssas münasibətdə özünü ən yüksək səviyyədə göstərir. Cəmiyyətimizin bu kateqoriyadan olan insanlarının sosial problemlərinin həll olunması, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər 2021-ci ildə daha intensiv, davamlı xarakter aldı...*



# Yeni ili yeni mənzildə, yeni avtomobillə qarşıladılar...

## *Muxtar respublikamızda şəhid ailələrinə və qazilərimizə dövlət qayğısı vətənpərvərlik təzahürüdür*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il sentyabrın 23-də imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncamına əsasən bu məqsədlə 1 milyon manat vəsait ayrıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanına uyğun olaraq isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradıldı. Nəticədə, 2021-ci ildə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış və dəstək fondunun vəsaitləri hesabına muxtar respublikada 23 şəhid ailəsi və qazi mənzillə, 18 Vətən müharibəsi iştirakçısı avtomobillə təmin olundu, müvafiq kateqoriyadan olan 23 şəxsin müalicə və müayinənə köməklik göstərildi, şəhid ailələri və qazilərdən 17-nin kredit borcu ödənildi, 25-nin isə mənzilləri təmir olundu. Şəhid ailələri, Vətən müharibəsi iştirakçıları və qazilərə qayğının növbəti təzahürü isə özünü ötən il dekabrın 24-də – Azərbaycan Respublikası Prezidentinin 60 illik yubileyində göstərdi. Həmin gün Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində 3 şəhid ailəsinə və 2 qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim olundu. Yeni ili yeni mənzildə, yeni avtomobillə qarşılayan həmin şəxslərdən bir neçəsi ilə həmsöhbət olub, Vətən müharibəsində keçdikləri döyüş yolu, eləcə də müharibədən sonra sosial məişət şəraitlərinin yaxşılaşdırılması ilə bağlı fikirlərini öyrənməyə çalışdıq.

Yeni mənzillə təmin olunanlardan biri 1996-cı il martın 20-də Babək rayonunun Şıxmahmud kəndində dünyaya göz açan şəhid leytenant Fərmin Əliyevin ailəsidir. Həyat yoldaşı Fatimə xanım igid eloğlumuzun 24 illik şərəfli ömür yoluna nəzər salır, onunla bağlı xatirələrini bölüşür. Deyir ki, valideynlərinin, müəllimlərinin bildirdiyinə görə, Vətənə sonsuz məhəbbəti Şıxmahmud kənd tam orta məktəbində oxuyarkən, hələ yeniyetməlik dövründən dilindən, qəlbindən, davranışlarından oxunurmuş Fərminin. Elə Şıxmahmud kənd tam orta məktəbinin 9-cu sinfini bitirdikdən sonra – 2011-ci ildən Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirməyi də, bu mənada, təsadüf deyilmiş. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Xüsusi təyinatlı texnika və sistemlər ixtisasına yiyələnən Fərmin daha sonra Tərtər rayonundakı hərbi hissədə xidmətə başlayıb. Çevikliyi və bacarığı ilə qısa zamanda fərqlənib və elə buna görə də bir müddət sonra Mingəçevir şəhərinə xüsusi təyinatlı olaraq göndərilib.

Həyat yoldaşı bildirir ki, Fərmin müharibənin ilk günündən döyüşlərə atılır. Talış kəndinin azad edilməsində xüsusi qəhrəmanlıq nümunəsi göstərən Vətən oğlu şiddətli döyüşlərin birində



30 nəfərlə mühasirəyə düşsə də, qətiyyən özünü itirmir, mühasirəni yararaq döyüş yoldaşlarını da xilas edir. Müharibənin birinci günü evə zəng etmişdi: "Atamı, anamı, sizi sevdiyim qədər Vətənimi də sevirəm. Mən şəhid olsam, siz Vətənə əmanətsiniz. Sən güclü və ağıllı qadınsan. İnanıram ki, hər şeyin öhdəsindən layiqincə gələcəksən. Dünyaya göz açacaq övladımıza da yaxşı baxarsan. Qismət olsa, görüşərik". Çox təəssüf ki, bu görüş bizə qismət olmadı. Sentyabrın 29-da şəhidlik zirvəsinə ucaldı yoldaşım. 23 gün sonra isə oğul övladı dünyaya gəldi. Fərminin öz arzusu ilə uşağa atası Fərmanın adını verdik. Oktyabrın 1-də Naxçıvana şəhid kimi ilk gələnlərdən oldu qəhrəmanım. Ali Məclis Sədrinin qarşılanma mərasimində iştirakı, bizimlə yaxından maraqlanması, yas mərasiminin yüksək səviyyədə təşkili tək olmadığımız, dövlətimizin arxamızda dayandığı əminlik hissini yaşatdı bizə. Yoldaşım şəhadətə yüksəlməsindən sonra ölkə Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunduğu üçün hədsiz qürurlandıq. Ötən ilin sonlarında isə Naxçıvan şəhərində ikiotaqlı mənzillə təmin olunduq. Bilirəm ki, indi Fərminin ruhu şaddır. Çünki həm uğrunda canını fəda etdiyi torpaqlar azaddır, həm də dövlətimiz öz qəhrəmanının adını uca tutur, övladını diqqətsiz, qayğısız buraxmır. Balaca Fərman hərtərəfli imkanlar hesabına gözəl şəraitdə böyüyüb yaşa dolacaq. Atasının igidliyi barədə müəllimlərindən, sinif yoldaşlarından eşitdikcə qürur hissi keçirəcək. Vətəninə, dövlətinə xeyirli övlad kimi, atasının adına layiq yetişdirməyə çalışacağam igidimin yadigarını. Biz şəhid ailələrinə göstərilən diqqətə, qayğıya görə dövlətimizə minnətdarlıq edirəm.

Ötən il dekabrın 24-də Babək şəhərində ikiotaqlı mənzillə təmin edilən ehtiyatda olan baş leytenant, qazi ***Abbasəli Tarverdiyev*** də Vətən müharibəsində qəhrəmanlıq salnaməsi yazan igid oğullarımızdandır. Şərəfli hərb sənətini seçən digər naxçıvanlı gənclər kimi, o da ilk olaraq Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Hava hücumundan müdafiə ixtisası üzrə dərin biliklərə yiyələnib. Müvafiq əmrə əsasən leytenant rütbəsi alaraq Qusar rayonunda yerləşən "N" hərbi hissədə xidmətə başlayan, nizam-intizamı ilə seçilən Abbasəli təlimlərdə iştirak edərək yüksək döyüş bacarığına sahib olub. 2020-ci il 27 sentyabrdan başlayaraq tabeçiliyində olan şəxsi heyət ilə Füzuli, Cəbrayıl, Xocavənd istiqamətləri üzrə gedən şiddətli döyüşlərdə iştirak edib. Noyabrın 1-də müharibənin bitməsinə günlər qalmış Xocavənd istiqamətində düşmən artilleriyasının açdığı atəş nəticəsində ciddi xəsarət alaraq döyüş meydanını tərk etməyə məcbur olub. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Vətən müharibəsi iştirakçısı", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Hazırda Babək rayonu, Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbdə hərbi rəhbər vəzifəsində çalışan Abbasəli müəllimin dediklərindən: "Minlərlə vətənpərvər oğullar kimi, mən də Vətən müharibəsində iştirak edib, zəfər tarixini yazanlar arasında olduğum üçün çox qürurluyam. Mübariz ata-babalarımızın mənəvi mirasına sadiq olduğumuzu düşmənin layiqli cavabını verməklə bir daha sübut etdik, şəhid qardaşlarımızın qisasını aldıq, qanı yerdə qalmadı igidlərin. Həqiqətən, doğru deyiblər ki, azadlıq ən şirin nemətdir, onu heç nə ilə əvəz etmək olmaz. Bunu müharibə dövründə torpaqlarımız azad olunduqca, o müqəddəs yerlərə ayaq basan zaman hiss edirdik, duyurduq. İllərlə həsrətdə qalan torpağın düşmən tapdağından təmizlənməsində kiçicik də olsa, payımın olmasını bilmək, azad olunma medalları ilə təltif edilmək bambaşqa duyğudur. O hissi sözlə ifadə etmək mümkünsüzdür.

Qalib ordunun ehtiyatda olan nümayəndəsi kimi keçirdiyim döyüşlərdən danışır, hərbin ilkin sirlərini öyrətməyə çalışıram şagirdlərimə. Dövlətimizə də gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi üçün məktəbimizdə gözəl şərait yaratdığı, müharibə iştirakçısı, qazi kimi mənə burada dərs deməyə səlahiyyət verdiyi üçün ayrıca minnətdarlıq edirəm. Ümumiyyətlə, bu gün hara üz tutursamsa, orada həm insanların həssas münasibətini, həm də dövlətimizin qayğısını görürəm. Yeni il ərəfəsində yeni mənzillə təmin olunmağımın sevinci də çox böyükdür. Yaşasın hərbi qulluqçusunun, sosial təminatlı vətəndaşının qayğısına qalan, onun ehtiyacını ödəyən dövlətimiz".

Yeni il ərəfəsində avtomobillə təmin olunan ***Nəriman Fərəcli*** 1992-ci il mayın 8-də Culfa şəhərində dünyaya göz açıb. Deyirlər, həyatda təsadüf yoxdur, olacaqları yaşayırıq. Bir vaxt heç kimin ağlına da gəlməzdi ki, I Qarabağ müharibəsi dövründə, Şuşanın işğalı günü dünyaya göz açan Nəriman, gün gələcək, düşməni o torpaqdan qovanlar arasında yer alacaq. Bəli, o, üreyindəki Vətən eşqi ilə yaşadı, hər il doğum gününü könül xoşluğu ilə qeyd etmədən böyüdü, yaşa doldu. 2013-cü ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrinə sənədlərini təqdim etdi, bütün normativləri yüksək şəkildə yerinə yetirərək uşaqlıq arzusuna, müqəddəs istəyinə çatdı. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başlanması torpaq qədri bilən bütün oğullarımız kimi, Nərimanın da ürəyindən idi. 29-cu ad gününü fəxrlə qeyd etmək şansı, 30 illik həsrətə son qoymaq məqamı yetişmişdi artıq. Döyüşlərin başladığı ilk gündən Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Şuşa istiqamətlərində bir sıra tapşırıqları səlis şəkildə, dəqiqliklə yerinə yetirən bu xüsusi təyinatlımız oktyabrın 20-də ağır xəsarət alır, özü də istəmədən müharibəni davam etdirə bilmir. Ancaq onun yarımçıq qoyduğu işi döyüş yoldaşları böyük müvəffəqiyyətlə tamamlayır...

"Cəsur döyüşçü", həmçinin Füzulinin, Cəbrayılın, Kəlbəcərin, Şuşanın azad edilməsində göstərdiyi şücaətlərə görə təltif olunduğu medal-



ları üzərində böyük fəxrlə daşıyan Nəriman deyir ki, I Qarabağ müharibəsinin ağrı-acıları ilə keçdiyi kiçik yaşlarından hərb sənətinə böyük marağı olub. Ailəsinin, müəllimlərinin aşıladığı hərbi-vətənpərvərlik duyğuları yaşa dolduqca fikrinin qətiləşməsində böyük rol oynayıb, bu sahəni seçməsinə sövq edib. Bu gün qürurla, fəxrlə, başı dik şəkildə gəzir. Çünki o, qalib ordudan ehtiyata buraxılıb, düşmənin layiqli cavabını verənlər arasında onun da adı vardır. Yüksək müavinətlə, Prezident təqaüdü ilə təmin olunan qazimiz avtomobil hədiyyə etdiyi üçün dövlətimizə minnətdarlıq edir. Arzusudur ki, ona hədiyyə olunan həmin avtomobillə tezliklə açılacaq Zəngəzur dəhlizi ilə azad Şuşaya, Laçına, Qarabağa getsin...

*Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, tarix həmişə hər şeyi öz yerinə qoyur. Bəli, dahi siyasətçinin xüsusi dəstxətlə yazdığı müstəqillik, dirçəliş, yüksəliş tarixinin nuru bizi xalq olaraq qalibiyyətə, dövlətimizi böyük söz sahibliyinə, ordumuzu qüdrətə, yenilməzliyə, zəfərə apardı, düşmənə isə layiq olduğu yeri göstərdi. Böyük Qələbədə izi olan şəhid ailələri, Vətən müharibəsi iştirakçıları və qazilərə verilən dəyər, göstərilən qayğı da məhz təməli illər öncə qoyulan bu yola sədaqətin nəticəsi, milli-mənəvi dəyərlərə hörmətin ifadəsi kimi həm də bu günün gəncliyinə bir örnək, nümunədir...*

**Nail ƏSGƏROV**

*Bu yaxınlarda dəyərli həmkarımız, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Ümumi təbabət və klinik fənlər kafedrasının dosenti, tibb elmləri doktoru İsa Abdullayevin “Ümumi cərrahlıq” dərsliyi işıq üzü görüb. Yeni dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri üçün “Ümumi cərrahlıq, anesteziologiya və reanimatologiya” tədris proqramına uyğun olaraq yazılmışdır. Kitabın rəyçiləri ATU Ümumi cərrahlıq və anesteziologiya kafedrasının konsultantı, Azərbaycan Respublikasının Əməkdar həkimi, professor Çərkəz Cəfərov və həmin kafedranın professoru Cabbar Hacıyev, elmi redaktoru Əməkdar elm xadimi, Rusiya Federasiyasının Tibbi Texniki Akademiyasının və Türk Dünyası Araşdırmaları Beynəlxalq Akademiyasının akademiki Qalib Qarayev, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Ümumi təbabət və klinik fənlər kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi Sabir Novruzov, redaktoru filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanovadır.*

Yeni nəşrlər

## Muxtar respublika səhiyyəsində və tibb təhsilində böyük elmi nailiyyət




Müəllif ümumi cərrahiyyənin cərrahlıq sənətinin əlifbasını öyrətdiyini yazır və düzgün olaraq bunu digər cərrahlıq ixtisaslarına gedən yolların “ümumi cərrahiyyənin dəhlizindən” başlaması ilə əsaslandırır. Müəllif respublikamızda dərc olunmuş “Ümumi cərrahlıq” dərsliklərinin xronoloji tarixini araşdırmış və bu dərslikləri qısaca olaraq xarakterizə etmişdir. Azərbaycan Respublikasında sayca səkkizinci, respublikamızda Ümumi cərrahlıq, anesteziologiya və reanimasiya kafedrasının fəaliyyətinin ikinci yüzilliyində və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin fəaliyyətinin 20 ilində ilk belə dərslik işıq üzü görmüşdür.

18 fəsildən ibarət olan yeni dərsliyin “Giriş”ində cərrahi fəaliyyətlə məşğul olan müasir, çoxprofilli xəstəxanaların quruluşu və təchizatı, pandemiya dövründə bu xəstəxanaların xidmət sferasında olan dəyişikliklər, tibb müəssisəsi olmayan digər obyektlərin uyğunlaşdırılaraq xəstəxana kimi istifadə olunması, həmçinin modultipli xəstəxanaların quraşdırılması və təchizatı haqqında məlumat verilir.

“Cərrahlığın inkişaf tarixi” fəslində Dünya və Azərbaycan cərrahiyyəsinin tarixinin əsas dövrləri və bu elmin inkişafında rolu olan görkəmli şəxsiyyətlər haqqında məlumat yer almış, ATU və NDU Tibb fakültələrinin respublikamızda cərrahiyyənin inkişafına verdiyi töhfələr, həmçinin hazırda respublikamızda cərrahiyyənin aparıcı qüvvəsi olan elmlər doktoru və professorların adları xüsusi olaraq qeyd edilmişdir. Bu fəsildə Naxçıvan Muxtar Respublikasında cərrahiyyənin tarixi, xüsusilə də müstəqillik illərində səhiyyənin digər sahələri kimi, cərrahiyyənin inkişafı istiqamətində görülən çoxsaylı tədbirlər, yaradılan müasir infrastruktur və tibbi təchizat, qazanılan nailiyyətlər, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yerli tibbi kadr hazırlığı baxımından əhəmiyyətinə ayrıca yer verilmişdir.

Dərslikdə antiseptikanın tarixi, ümumi prinsipləri, hazırda geniş istifadə olunan antiseptik maddələr, antibiotiklər, həmçinin antibiotiklərə qarşı həssaslığın yoxlanması üsulları, proteolinik fermentlər, probiotiklər, bakteriofaqlar, fitonsitlər, vaksinlər, anatoksinlər və zərdablar haqqında geniş bəhs olunmuşdur.

Kitabda aseptikanın növləri, prinsipləri, endogen və ekzogen infeksiyalara qarşı mübarizə tədbirləri, əllərin, əməliyyat otağının, havanın və əməliyyat sahəsinin mikrobsuzlaşdırılması üsulları, sterilizasiyaya nəzarət üsulları nəzəri və illüstrativ olaraq ayrıca fəsildə geniş şəkildə şərh edilmişdir.

Ağrısızlaşdırma və onun növlərinə həsr olunmuş növbəti fəsildə isə ağrısızlaşdırmanın tarixi, növləri haqqında nəzəriyyələr, metodikası, ağırlaşmaları, həmçinin novokain blokadaları haqqında geniş nəzəri və illüstrativ məlumatlarla bərabər, larinqeal maska ilə, retroqrad yolla və traxeostomik boru vasitəsilə traxeyanın intubasiya edilməsi, həmçinin videolarinqoskopların tətbiqi kimi dəyərli məlumatlar verilmişdir.

Xəstələrin cərrahi əməliyyata hazırlanması, əməliyyatlara mütləq və nisbi göstəriş və əks göstərişlərin təyini, radikal, palliativ, genişləndirilmiş, simptomatik, bir və çoxmərhələli, konveyer üsulu ilə aparılan, diaqnostik, endoskopik, mikrocərrahi və endovaskulyar əməliyyatlar haqqında geniş məlumatlar bir daha təsdiq edir ki, dərslik gələcəyin cərrahları üçün mükəmməl ixtisas biliklərinə yiyələnmək baxımından qiymətli mənbə sayılmağa layiqdir.

Dərslikdə travmatik və öz-özünə, daxili və xarici, birincili və ikincili, kəskin və xroniki qanaxmalar da ətraflı təsvir olunmuş, onların diaqnostikası və dayandırılması yolları nəzəri və illüstrativ olaraq şərh edilmişdir ki, bu da ekstremal vəziyyətlərdə ilkin təcili tibbi yardım vasitəsilə xəstələrin həyatını xilas etmək baxımından nəinki cərrahlar üçün, digər ixtisas sahibi olacaq həkimlər üçün də faydalı elmi-nəzəri biliklərdir. Bununla yanaşı, dərslikdə qanköçürmənin tarixi, qan qruplarının təyininin seroloji əsası, rezus faktor, qanköçürməyə və donorluğa göstəriş və əks göstərişlər, qanköçürmənin növləri, insan orqanizmi üçün həyati əhəmiyyəti, qanköçürmənin sənədləşdirilməsi və qanəvəzedicilər haqqında ətraflı məlumat da öz əksini tapmışdır.

Zədələnmələr haqqında ümumi məlumatlar, onların müxtəlif formaları, çıxıqlar və sınıqlar, onların diaqnostikası və müalicəsi yolları dərslikdə nəzəri və illüstrativ olaraq ayrıca fəsildə şərh edilmişdir. Bununla yanaşı, termiki zədələnmələr (yanıqlar, donmalar, elektrotravmalar), onların dərəcələri, zədələnmə sahəsinin təyini üsulları, yanıqların dövrləri, müalicə üsulları, yanıqlar zamanı cərrahi müdaxiləyə göstərişlər və xəstələrə yardımın xüsusiyyətləri müfəssəl izah olunur. Bu elmi-nəzəri bilikləri – müharibə şəraitində, fövqəladə hallar – qəzalar, təbii fəlakətlər, təhlükəli vəziyyətlər və bədbəxt hadisələr zamanı əhalinin həyatının xilas edilməsi, onların sağlamlığının qorunması, insan tələfatına yol verilməməsi məqsədilə həyata keçirilməsi zəruri olan təxirəsalınmaz xilasetmə tədbirlərini mükəmməl öyrənmək, xalqına xidmət etmək kimi müqəddəs bir peşəyə yiyələnmək istəyən hər bir tibb işçisinin peşə borcudur.

Sarğı materiallarının növləri və formaları, orqanizmin müxtəlif nahiyələrinə qoyulan sarğılar və bu sarğıların qoyulma texnikası, həmçinin uyğunlaşdırılmış şinalar haqqında müfəssəl nəzəri və illüstrativ məlumatlar hər bir həkimin, həmçinin orta tibb işçilərinin də faydalana biləcəyi nəzəri-təcrübi biliklərdir.

Dərslikdə cərrahi infeksiyaların təsnifatı, klinikası, diaqnostikası, törədiciləri, bu törədicilərin xüsusiyyətləri və cərrahi infeksiyaların yerli formaları, osteomielitlər və artritlər, onların növləri, diaqnostikası və müalicə üsulları, nəzəri və illüstrativ şəkildə ətraflı şərh olunur.

Tibb ixtisasının tələbələri üçün zəruri sayılan perikarditlərin, plevrit və peritonitlərin, həmçinin anaerob infeksiyaların klinikası, diaqnostikası, konservativ, cərrahi və spesifik müalicəsi prinsipləri geniş təsvir olunmuşdur.

Yeni dərslikdə əsrin bəlası sayılan xərçəng xəstəliyi, şişlər haqqında da ümumi məlumatlar verilir ki, müalicə-diaqnostika işini düzgün təşkil etmək baxımından bu məlumatlar təkcə onkoloqlar üçün deyil, bütün həkimlər üçün zəruridir, eyni zamanda, ümumilikdə, xəstəliyin vaxtında qarşısının alınması üçün əhalinin tibbi maarifləndirilməsi baxımından da əhəmiyyətlidir. Burada onkoloji xidmətin təşkili, şişlərlə, şişəbənzər törəmələrin fərqi, xoş və bədxassəli şişlərin oxşar və fərqli cəhətləri elmi şəkildə geniş şərh olunmuşdur. Burada şişlərin diaqnostikasında onkomarkerlərin əhəmiyyəti, müalicənin cərrahi, kimyəvi terapevtik və şüa terapiyası üsulları, həmçinin mərhələlərə uyğun hansı müalicə üsulunun daha effektli olması işıqlandırılmışdır.

Anadangəlmə inkişaf qüsurlarına həsr olunmuş fəsildə teratogenez və teratogen faktorlar haqqında ümumi məlumat verilmiş, inkişaf qüsurlarının təsnifatı və orqanizmin bütün inkişaf qüsurları geniş illüstrativ və izahlı surətdə şərh edilmişdir. Hər kəsə yaxşı məlumdur ki, muxtar respublikada insan amilinə yüksək dəyər verilir, gələcək nəslin sağlamlığına hərtərəfli dövlət qayğısı göstərilir. Bəhs etdiyimiz elmi məlumatlar aparılan məqsədyönlü dövlət siyasətinə xidmət etmək baxımından təkcə tibb işçilərinin yox, hər bir vətəndaşın, xüsusilə də gənc ailələrin, ana olmağa hazırlaşan gənc xanımlarımızın bilməsi zəruri olan faktlardır.

Son illər Azərbaycan səhiyyəsində transplantologiya sahəsində qazanılan uğurlar, o cümlədən muxtar respublikamızda da bu sahədə müəyyən irəliləyişlər, xüsusilə təqdirəlayiqdir. Dərslikdə transplantologiyanın tarixi, elmi əsasları, orqan donorluğu, orqanların götürülməsi texnikası və konservləşdirilməsi, köçürülmə texnikası, əks göstərişlər geniş surətdə öz əksini tapmışdır ki, bu elmi-nəzəri biliklər transplantologiyanın doğma diyarımızda da inkişafında əhəmiyyətli rol oynayacaq.

Ümumiyyətlə, muxtar respublikanın tanınmış səhiyyə işçisi və ilk tibb elmləri doktoru İsa Abdullayev bu sahədə kifayət qədər elmi-pedaqoji təcrübəyə malik alim kimi qarşıya qoyduğu məqsədə nail olmuşdur. Kitabın digər dərsliklərdən fərqi nəzəri materialların qısa və konkret olması, illüstrasiyaların çoxluğu və şəkillərin ümumiləşdirilərək bir patologiyaya aid çoxsaylı şəkillər toplusu kimi təqdim olmasındadır. Bununla yanaşı, hər fəslin sonunda son 20 ildə nəşr edilmiş Azərbaycan, türk, rus və ingilis dillərində olan müvafiq ədəbiyyat siyahısının verilməsi də yeni nəşrin elmi dəyərini artırır.

Kitab Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollegiya qərarı, Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə ali məktəblər üçün dərslik kimi nəşr olunmaq hüququ (qrif) almışdır.

*“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr olunmuş “Ümumi cərrahlıq” kitabı tibb sahəsində işıq üzü görmüş sanballı dərslik kimi muxtar respublika səhiyyəsində və tibb təhsilində böyük elmi nailiyyət sayılmağa layiqdir. Yeni nəşri Naxçıvanda səhiyyənin inkişafı, bu sahədə yüksəkixtisaslı mütəxəssis hazırlığı istiqamətində aparılan uzaqgörən dövlət siyasətinin də növbəti uğurlu bəhrəsi hesab etmək olar. Qətiyyətlə deyə bilərik ki, yeni dərslik milli elmi tibbi ədəbiyyatımızda bu sahədəki boşluğu doldurmaqla doğma diyarımızda yüksəkixtisaslı tibbi kadr hazırlığına layiqli töhfəsini verəcək.*

**Sabir NOVRUZOV**
*tibb üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi*

## Növbəti aktivlər təqdim edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluğunun təmin edilməsi istiqamətində əlverişli zəmin yaradıb.



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilmiş özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublika üzrə 26 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və bu şəxslərdən 12 nəfərin hər birinə 2 baş iribuynuzlu, 8 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 3 nəfərə miniyerşumlayan aqreqat, 1 nəfərə təmir-tikinti alətləri, 1 nəfərə inkubator və quş tükü təmizləyən aparat, 1 nəfərə isə bərbər-manikürçü avadanlıqları verilib. Özünüməşğulluğu təmin edilmiş ailələrin üzvlərindən 5 nəfərini sağlamlıq imkanları məhdud şəxslər, 1 nəfərini cəzaçəkmə müəssisəsindən azad olunan şəxs, 1 nəfərini nikahı pozulan şəxs, 1 nəfərini ailə başçısını itirən şəxs, 1 nəfərini məcburi köçkün, 2 nəfərini şəhid ailəsi üzvü, 3 nəfərini isə müharibə iştirakçısı olan şəxs təşkil edib.

Sözügedən aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Nazir muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Çıxışlarda ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışılıb, əldə olunan nəticələrdən bəhs edilib. Tədbirin davamında yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Qeyd edək ki, bu mərhələdə təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə Babək rayonunun Hacıvar kənd sakini Rauf Məmmədov, Kültəpə kənd sakini Səfər Hüseynov həvəsləndirmə tədbirlərinə cəlb edilib və bu məqsədlə onlara otdoğrayan aqreqat verilib.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, verilmiş aktivlərdən səmərəli istifadə edəcəklərini vurğulayıblar.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda ötən il 200 mindən artıq vətəndaş peyvənd olunub



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq 2021-ci ilin yanvar ayından etibarən muxtar respublikamızda da koronavirus infeksiyasına qarşı vaksinasiya prosesi mərhələli şəkildə davam etdirilir.

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində xüsusi komissiya yaradılıb. Komissiya muxtar respublikada COVID-19 virus infeksiyasına qarşı vaksinasiya prosesini təşkil edir. Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşı Leyla Vəliyeva ötən il muxtar respublikada virus əleyhinə vaksinasiyanın kütləviliyinə nail olunduğunu və prosesin yeni ilin ilk günlərindən də davam etdirildiyini bildirir:

– Naxçıvan Muxtar Respublikasında 2021-ci il fevral ayının 2-dən COVID-19 virus infeksiyasına qarşı vaksinasiyaya başlanılıb. Vaksinasiya, ilk növbədə, risk qrupu sayılan tibb işçiləri arasında aparılıb. Vaksinasiya 2 mərhələdə həyata keçirilir. Birinci dozanı qəbul edən vətəndaş 28 gündən sonra vaksinin 2-ci dozasını qəbul edir. Hər iki dozanı qəbul etmiş vətəndaşa vaksinasiyanın sonunda sertifikat verilir.

Səhiyyə işçilərindən sonra isə 50 yaşdan yuxarı vətəndaşlar və təhsil işçiləri vaksinasiyaya cəlb olunub. Aprel ayından isə yaşı 18-dən yuxarı olan bütün vətəndaşların peyvənd olunmasına başlanıldı. Naxçıvan şəhərində və rayonlarda istifadə olunan vaksin “Sinovac” vaksinidir. 2021-ci ilin noyabr ayından artıq 3-cü doza – “Booster” dozaya başlanılıb. 3-cü doza vaksin 2-ci dozadan 6 ay keçmiş bütün vətəndaşlara şamil olunur. Noyabr ayının 16-dan etibarən Almaniya istehsalı “Pfizer” vaksininin istifadəsinə başlanılıb. Vətəndaşların istəyindən asılı olaraq “Booster” doza olaraq həm “Sinovac”, həm də “Pfizer” vaksini tətbiq olunur. Buradan bütün vətəndaşların nəzərinə çatdırıram ki, hər iki dozanı qəbul etmiş hər kəs 3-cü doza vaksinlərini mütləq qəbul etsinlər. Çünki keçən müddət ərzində orqanizmdə anticisimlərin sayı azalır və yenidən xəstəliyə yoluxma riski artır.

Qeyd edək ki, ötən il Naxçıvan Muxtar Respublikasında 200 min nəfərdən çox vətəndaş vaksinasiya prosesinə cəlb olunub. Həmçinin risk qrupuna daxil olan səhiyyə işçilərinə qrip virusuna qarşı peyvəndlərin tətbiqinə başlanılıb. 2022-ci ilin yanvar ayından tətbiq olunan qrip əleyhinə peyvənd bu gün 100-dən artıq tibb işçisinə vurulub. Aparılan tibbi-profilaktik tədbirlərin nəticəsidir ki, ölkəmiz üzrə koronavirusa ən az yoluxma faktı Naxçıvanda qeydə alınıb. COVID-19 pandemiyasına qarşı vaksinasiya tədbirləri prosesi davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Rəsm əsərini satdığına görə peşmançılıq çəkən, Naxçıvanda yaşadığına görə özünü şanslı hesab edən, ulu öndərin portretlərini çəkməsi ilə qürur duyan rəssam

***O, 1958-ci ildə Şahbuz rayonunun Keçili kəndində anadan olmuşdur. 1983-cü ildə Əzim Əzimzadə adına Bakı Dövlət Rəssamlıq Məktəbinin Bədii tərtibat fakültəsini bitirmişdir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin, Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Müsahibimiz Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur.***



*– Rəssamlıq uşaqlıq arzunuz olub?*

– Təbii ki, arzu olmasa, məqsədə çatmaq mümkün olmaz. Məktəb yaşlarımdan Xalq rəssamı Mikayıl Abdullayevin illüstrasiyaları çox xoşuma gəlirdi, onları evimizin divarlarında işləyirdim. Elə o vaxtdan rəssamlığa məndə maraq yarandı və bu sənətin arxasınca getdim.

*– Rəssamlıq insanla birlikdə doğulan bir istedaddır, Səyyad müəllim?*

– Əslində, əsl rəssam doğulmalıdır. Sonradan yarana bilən həvəskar olur, yəqin ki. Belə bir şey deyim sizə – insanların hamısının müəyyən qabiliyyətləri vardır. Sadəcə, o qabiliyyəti üzə çıxarıb inkişaf etdirmək şərtdir. Fitri istedad isə elədir ki, səni özü sənətin arxasınca aparır. Rəssamlıqla məşğul olan insanın həm müşahidə qabiliyyəti güclü olmalıdır, həm də daim axtarışda olmalıdır. İnsanın daxili duyğularını üzə çıxarmaq rəssamlığın əsas şərtlərindən biridir.

*– “Ən böyük rəssam Allahdır”, – deyirlər, bu, həqiqətən, belədirmi?*

– Əlbəttə... Ona görə ki, bütün gözəllikləri yaradan Allah Taaladır. Biz onun yaratdıqlarının surətlərini işləyə bilirik. Deməli, ən böyük yaradan da Allahdır.

*– Səyyad müəllim, emalatxananızda portret janrlarında rəsmlər üstünlük təşkil edir. Ümumiyyətlə, hansı mövzulara müraciət etməyi sevirsiniz?*

– Bilirsiniz ki, Naxçıvan həm gözəlliklər, həm də tarixi abidələr diyarıdır. Xalq rəssamı Fərhad Xəlilov bura gələndə bir mənzərəni görüb dedi ki, heç yerə getmək lazım deyil, Naxçıvanda rəssamın işləməsi üçün hər şey var. Naxçıvanın, demək olar ki, bütün tarixi abidələrini çəkmişəm. Möminə xatın türbəsini lap incəliklərinə qədər işləmişəm. Bir neçə texnikada özümü sınamışam. Rəssamlığın elə bir janrı yoxdur ki, özümü sınamayım. “Tarixi yaşadan torpaq” tablosunu görürsünüz? Burada Naxçıvanın keçmişini, orta və müasir dövrünü təsvir etmişəm. Doğrudan da, Naxçıvan torpağı tarixi yaşadıb, indiki Naxçıvan isə günü-gündən inkişaf edir, çiçəklənir. “Gözəlləşən diyar” əsərim isə bu inkişafın ifadəsidir.

*– Sizin üçün yaradıcılığınızın ən yaxşı əsəri?*

– Fikrimcə, bu, “Mənalı ömür” əsəridir. Hansı ki, ümummilli liderimizə həsr etmişəm. Heydər Əliyev Muzeyində də sərgilənir.

*– Görürəm ki, tarixi şəxsiyyətlərin portretlərini işləməyi sevirsiniz. Bu, nədən irəli gəlir?*

– Bu məndə vətənpərvərlik duyğusundan irəli gələn ən böyük hissdir. Ümummilli liderimiz Naxçıvanda doğulub, böyüyüb, buranın havasını udub və biz yaradıcı insanlar buna heç vaxt biganə qala bilmərik. Digər tərəfdən, Şəhriyar, Atatürk, Məmməd Araz, Bəhruz Kəngərli kimi şəxsiyyətlərin portretlərini də işləmişəm. Baxın, bu əsərin adı “Xilaskar”dır. Atatürk Türkiyəni, Heydər Əliyev isə Azərbaycanı xilas edib. Bu iki müdrik şəxsiyyət bir tabloda daha gözəl görünür, elə deyilmi?

*– Hansı ölkələrdə sərgiləriniz açılıb?*

– Bakı, Türkiyə, İran, Koreya, Türkmənistanda sərgilərim olub. Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Sərgi Salonunda 2019-cu ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş fərdi yaradıcılıq sərgim keçirildi. Orada da hər kəs vətənpərvərlik ruhunda işlədiyimi təsdiq elədi.

*– Əsərlərinizi satırsınızmı? Elə olub ki, satmağa məcbur olmusunuz?*

– Əsərlər adamın ürəyidir. Bir tablonu 90-cı illərdə Türkiyədən bir nəfərə satdım, bu gün də heyifsilənirəm, çox dəyərli rəsm idi. Həmin əsərdə adət-ənənələrimizi təsvir etmişdim.

*– İldə nə qədər sifarişiniz olur?*

– Ən çox portret sifarişi alıram. Ötən il xalqımızın ən böyük arzusu yerinə yetdi, torpaqlarımız işğaldan azad olundu. Böyük Zəfər əldə etdik, şəhidlər verdik. Allah hamısına rəhmət eləsin. Bir ayın içində 30-a yaxın şəhid portreti işləmişəm. General-mayor Polad Həşimovun portretini yandırma üsulu ilə işləmişdim. Anası Səmayə Həşimova Naxçıvana gələndə Əshabi-Kəhfdə portreti ona hədiyyə etdim.

*– Yaradıcılığınıza təsiri olan rəssamlar olub?*

– Təbii ki, bizim dünya səviyyəli rəssamlarımız Tahir Salahov, Mikayıl Abdullayevin yaradıcılığıma təsiri olub. Onlar bizim üçün öncüldürlər. Digər tərəfdən, Niderland rəssamı və qrafiki Rembrandt, italyan rəssam Leonardo da Vinçi insan duyğularını o qədər mükəmməl ifadə ediblər ki, əsərlərinə həmişə heyranlıqla baxıram.

*– Rəsm əsərinin ovqata təsiri tamaşaçıdan asılıdır?*

– Tamaşaçıdan daha çox asılıdır.



Yer üzərindəki insanların xarakteri, dünyaya baxışı, əsəri təhlil etmək qabiliyyəti fərqli olduğu kimi, onların da əhvalı dəyişkən olur. Hər hansı əsəri işləyəndə çatdırmaq istədiyin fikir fərqli olsa da, tamaşaçı həmin rəsmdə elə qeyri-adi fikir tapır ki, baxırsan, doğrudan, bunlar da varmış.

*– Səyyad müəllim, niyə insanlar evində asılmış yaxşı rəsm əsərinə illərlə baxmaqdan bezmir?*

– Rəsmdə əgər fikir, ideya varsa, ona baxmaqdan bezmərsən. Rəssam hər hansı tabloda insanın daxili dünyasını çatdıra bilirsə, o əsər, təbii ki, baxımlı olur.

*– Səyyad müəllim, bir gün Şuşaya getsəniz, hansı rəsmi çəkmək istəyərdiniz?*

– Məşhur xanəndə Xan Şuşinskinin “Şuşanın dağları” mahnısının sözlərinin real əksi əsasında bir əsər yaratmaq istəyərdim.

*–Ümumiyyətlə, çəkə bilmədiyiniz rəsm var?*

– Məhəmməd Peyğəmbərin (s) bir sözü var deyir: “Beşikdən qəbir evinə kimi elm öyrənin!” Rəssam da odur ki, lap əvvəldən axıra qədər axtarışda olur. Rəssamın heç vaxt fikri tükənmir, vaxtı çatmır, sadəcə. Çəkə bilmədiyim əsər hələ ki, yoxdur.

*– Gənc rəssamların yaradıcılığını necə qiymətləndirirsiniz?*

– Müxtəlif yaş qrupunda olan yeniyetmə və gənclərlə işləməyi sevirəm. Onların hamısının qabiliyyəti var. İnkişaf etdirmək müəllimdən asılıdır. Müəllim həvəsin yaradılmasında, istedadın üzə çıxarılmasında, özünəinamın formalaşmasında mühüm rol oynayır.

*– Rəssamı dövlət, yoxsa xalq qiymətləndirməlidir?*

– Əlbəttə ki, dövlətin verdiyi dəyər fərqlidir. O fərqi biz həmişə hiss etmişik və görmüşük. Bizim ən böyük xoşbəxtliyimiz ondadır ki, Naxçıvanda yaşayırıq. Ona görə ki, muxtar respublika rəhbəri incəsənət adamlarını həmişə diqqətdə saxlayır. Bizə lazımi dəyər, qiymət verilib. Mən “Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı” fəxri adına, Prezident mükafatına layiq görülmüşəm. Ötən il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması isə, bütövlükdə, ulu diyarımızda incəsənətə və sənət adamlarına verilən yüksək dəyərdir.

*– Ailədə davamçınız varmı, Səyyad müəllim?*

– Ailədə davamçım yoxdur, təəssüf ki. Üç övladım var. Qızlarımın ikisi müəllimdir. Çox gözəl qabiliyyətləri var, ancaq bu sahəni seçmədilər. Övladlarımın fikri ilə həmişə razılaşmışam və sərbəst yaşamağı öyrətmişəm onlara. Sevdiyi sənətin dalınca getsələr, daha çox uğur qazanarlar.

*– Siz həm də teatrda quruluşçu rəssamsınız. Teatr rəssamlığının hansı spesifik xüsusiyyətləri vardır?*

– Teatrın tələbi mürəkkəbdir. Emalatxanada insan öz istədiyini çəkə bilir. Teatr rəssamı olmaq üçün məkanı, zamanı, dövrü, aktyorların geyimini, hərəkətlərini, dekorasiyaları və sair– hamısını nəzərə almalısan. Obraza mane olmayacaq dekorasiyalar qurmalısan, səhnələr yaratmalısan. Teatr kollektiv sənətidir, bütün kollektivin fikri nəzərə alınmalıdır. Teatrda pərdə açılanda birinci rəssamın dekorasiyası görünür. O dekorasiya həmin əsərə uyğun seçilibsə, rənglər o ab-havanı yaradıbsa, tamaşanın bütün hadisələrinə kömək edirsə, bu, rəssamın uğurudur.

*– Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləriniz necə gedir?*

– 1987-ci ildən indiyə qədər teatrda quruluşçu rəssam işləyirəm. 10 il Naxçıvan Dövlət Uşaq Teatrında işləmişəm. Uşaqların tələbi böyüklərdən daha çoxdur. Onların dünyası çox maraqlıdır. Uşaq teatrında 10-15 əsərə quruluş vermişəm, dram teatrda, haradasa, 22 əsərin quruluşunu vermişəm. “Hökmdar və qızı” tamaşası Bakı və Sumqayıtda, “Ölülər və dəlilər” tamaşası Qarsda, “Topal Teymur” İqdırda qastrolda olub. Heç vaxt yadımdan çıxmır ki, “Hökmdar və qızı” Musiqili Komediya Teatrında tamaşaya qoyulanda o qədər rezonans yaratdı ki, bir nəfər oradakı hadisələrə qapılaraq durub zalda qışqırdı. Həm aktyor oyunu, həm səhnə quruluşu çox gözəl idi. Həmin tamaşada dekorasiyanı bir qılıncın üstündə qurmuşdum. Burada qılınc həm qisaskar, həm də xilaskar rolunda çıxış edirdi. “Nadir şah” tamaşasında üç gözdən istifadə etmişdim. Bu da onu ifadə edirdi ki, insanların dünyaya baxışı üç formada – biri üçbucaq olur, yəni öz çərçivəsindən kənarı görmək istəmir, biri dördbucaq olur, yəni dünyanı bir az geniş görə bilir, biri də dairənin içərisində olanda bütün dünyanı görə bilir, ümumilikdə, dünyagörüşün fərqliliyini burada çatdırmaq istəmişdim. Çox uğurlu tamaşa alınmışdı.

*– Siz həm də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində dərnək rəhbərisiniz...*

– Bəli, 20 ildən artıqdır ki, dərnək üzvlərinə rəssamlığın sirlərini öyrədirəm. Naxçıvanda diqqətdən kənarda qalan müəssisə yoxdur. Çalışdığım mərkəzdə də çox yüksək şərait yaradılıb. Mən mərkəzə çox həvəslə gedirəm. Uşaqlar da öyrənməyə çox həvəslidirlər. Sənətə düzgün yanaşsan, uşaqlara düzgün istiqamət versən, heç vaxt onlar səndən qaçmazlar. Ona görə də nəyi bilirəmsə, onlara ürəklə öyrədirəm. Onların qazandığı uğurlar isə bir müəllim üçün böyük şərəfdir.

*– Özünüzü şanslı hesab edirsinizmi?*

– Edirəm. Ona görə ki, rəssam üçün ecazkar təbiəti, ulu tarixi və müasir inkişafı ilə ilham mənbəyi olan Naxçıvanda – sənətkarın qədir-qiyməti bilinən bir diyarda yaşayıram. Allahın verdiyi ömür nədirsə, onu da yaradıcılığa həsr edəcəyəm.

*– Dəyərli vaxtınızı ayırdığınız üçün sağ olun.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4325 | 320,1 | 320,1 | 100,0 |
| 2. | Şərur rayonu | 1885 | 151,6 | 151,6 | 100,0 |
| 3. | Babək rayonu | 1395 | 112,9 | 112,9 | 100,0 |
| 4. | Ordubad rayonu | 978 | 79,3 | 79,3 | 100,0 |
| 5. | Culfa rayonu | 1056 | 85,5 | 85,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 633 | 53,7 | 53,7 | 100,0 |
| 7. | Şahbuz rayonu | 387 | 31,9 | 31,9 | 100,0 |
| 8. | Sədərək rayonu | 232 | 19,1 | 19,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19186 | 1937,9 | 2017,9 | 104,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30077** | **2792,0** | **2872,0** | **102,9** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla verilən 30 milyon 77 min kilovat/saat elektrik enerjisinin dəyəri 2 milyon 792 min manat olmuş, cəmi 2 milyon 872 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 102,9 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin dekabr ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4570306 | 900389 | 900477 | 100,0 |
| 2. | Şahbuz rayonu | 826452 | 158967 | 158981 | 100,0 |
| 3. | Ordubad rayonu | 1442426 | 275992 | 276012 | 100,0 |
| 4. | Babək rayonu | 2827376 | 580976 | 581003 | 100,0 |
| 5. | Şərur rayonu | 2650822 | 517345 | 517364 | 100,0 |
| 6. | Culfa rayonu | 1503672 | 295246 | 295251 | 100,0 |
| 7. | Kəngərli rayonu | 1170593 | 236301 | 236304 | 100,0 |
| 8. | Sədərək rayonu | 422760 | 79014 | 79014 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12487301 | 2427383 | 2758761 | 113,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27901708** | **5471613** | **5803167** | **106,1** |

### İtmişdir

Naxçıvan şəhəri, Nizami küçəsi 48/9 ünvanında yaşayan Rəsulov Rəşadət Nemət oğlunun adına olan MH-0023777 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Ələkbərov Səfər Orucqulu oğlunun adına olan evin 3419 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Səfərova Sura Məmməd qızının adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 34